# Turizmin inkişafı üçün görülən tədbirlər il boyu davam edir

Zaqatala turizmin müxtəlif növlərinin inkişafı üçün geniş potensiala malikdir. Bu gün rayonda turizm infrastrukturu inkişaf mərhələsindədir. Beynəlxalq Hava Limanı, Olimpiya kompleksi, istirahət mərkəzləri və digər obyektlər turizmin inkişafına təsirsiz ötüşmür.





Son illər rayonda yeni turizm obyektləri yaradılır. Xüsusən Car, Yuxarı Tala, Meşleş, Mazıx, Cimcimax, Kebeloba və digər kəndlərdə mühüm işlər görülür. Məsələn, tarix-mədəniyyət qoruğu olan Zaqatala qalası ərazisində yerləşən Daxili Qoşunların N saylı hərbi hissəsi yeni əraziyə köçürüləndən sonra tarix-mədəniyyət abidəsi Mədəniyyət və Turizm Nazirliyinin balansına qaytarılmış, işçilər qala ərazisindəki binaya köçürülmüşdür. Bundan əlavə, tarix-mədəniyyət qoruğu ərazisindəki binaların, Pəri və Cingöz qalalarının təmir və bərpa olunması, bu ərazilərdə infrastrukturun yaxşılaşdırılmasını nəzərdə tutan Zaqatala regional turizm inkişaf proqramı, eləcə də "Mədəniyyət müəssisələrinin fəaliyyətinin turizm sahəsi ilə əlaqələndirilməsi haqqında" Mədəniyyət və Turizm Nazirliyinin əmrinə əsasən yay turizm mövsümü ilə bağlı tədbirlər planı hazırlanmışdır. Bu gün həmin sənədlərin icrası çərçivəsində Heydər parkında Zaqatalanın incəsənət ustaları və özfəaliyyət kollektivləri çıxış edir, rəsm qalereyasının iştirakı ilə "Dədə Qorqud" meydanında rəsm əsərlərinin satış sərgisi təşkil olunur. Sərgidə yerli rəssamlar, həmçinin açıq səma altında müxtəlif əsərlər yaradırlar. Belə tədbirlər hotellərdə, turizm obyektlərində də keçirilir ki, bunun da əsas məqsədi rayona daha çox turist cəlb etməkdir.



Zaqatala öz tarixinə görə qədim şəhər olduğundan burada müxtəlif dövrlərə aid çox sayda tarixi və memarlıq abidələri var. Rayondakı onlarla alban məbədinin tarixi eramızın IV-V əsrlərinə gedib çıxır. Ümumiyyətlə, Zaqatalada 108 tarixi abidə qeydə alınmışdır. Alban kilsəsi (VII əsr), Cingözqala (XIV əsr), Pəri qalası (V əsr), Mosul kəndində yerləşən Minarə, rayonun mərkəzindəki Zaqatala qalası, Mazıx şəlaləsi qonaqların daha çox maraq göstərdiyi yerlərdir.

Dövlət rəhbəri İlham Əliyevin Zaqatalaya hər səfərindən sonra turizm infrastrukturunun yenidən qurulması, xidmət səviyyəsinin daha da yüksəldilməsi üçün konkret tədbirlər görülür: "Zaqatalanın çox gözəl təbiəti vardır, görməli yerləri, tarixi və qədim memarlıq abidələri çoxdur. Mən çox istəyirəm ki, Azərbaycan vətəndaşları bunu görsünlər və ilk növbədə daxili turizm inkişaf etsin. Eyni zamanda xarici turistlər də gəlsinlər, görsünlər ki, Azərbaycanda nə qədər gözəl işlər gedir və necə səfalı, gözəl yerlər vardır" - bu sözlər Zaqatala Olimpiya İdman Kompleksinin, aeroportun, "Grata" hotelinin, Mədəniyyət Mərkəzinin, Dədə Qorqud meydanının, Heydər Əliyev Mərkəzinin, Heydər və Zərifə Əliyeva parklarının açılışında iştirak etmiş Prezidentə məxsusdur.

Ümumilikdə son 10 ildə rayonda 15 mədəniyyət müəssisəsi tikilmiş, 41 müəssisə əsaslı təmir edilmiş, 28 tarixi abidədə cari və əsaslı təmir işləri aparılmış, 14 xatirə kompleksi inşa olunmuşdur. 2009-cu ildən rayonda Turizm İnformasiya Mərkəzi fəaliyyət göstərir. Mərkəz Qax, Zaqatala və Balakən rayonlarının turizm potensialı ilə bağlı müəyyən təbliğat işləri aparır.

***Zümrüd AĞAKİŞİYEVA,***
***Zaqatala Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri***

Azərbaycan.- 2016.- 17 iyul.- S. 5.